30.05.2025 | 18:00
Bayıl Arena

AZƏRBAYCAN V LİTVA

# OYUN PROQRAMI

# BU BURAXILIŞDA

**4** LİTVA MİLLİ KOMANDASI





**18** SİYASƏT ƏSGƏROVUN AÇIQLAMASI

**22** AZƏRBAYCAN MİLLİ KOMANDASI



**6** LİTVA MİLLİ KOMANDASININ BAŞ MƏŞQÇİSİ

Litva millisinin baş məşqçisi Tomas Rajanauskas azərbaycanlı ...

**9** LİTVA MİLLİSİNİN YADDAQALAN NƏTİCƏLƏRİ

Litva millisinin ilk rəsmi oyunu 1993-cü ilə təsadüf edib. Litvalılar avqustun ...

**11** SEVİNC CƏFƏRZADƏNİN MÜSAHİBƏSİ

"Yeganə gözləntimiz qələbədir"

**19** STADİON HAQQINDA

Azərbaycan və Litva millilərinin üz-üzə gələcəyi "Bayıl Arena" AFFA tərəfindən ...

**26** AZƏRBAYCANDA QADIN FUTBOLUNUN YARANDIĞI İL

Qadın futbolçulardan ibarət Azərbaycan milli komandası ilk dəfə ...

**Şəkillər:** AFFA-nın fotobazası, "Google Photos", gettyimages.com

## BİZ **BİRLİKDƏ** GÜCLÜYÜK!

AZƏRBAYCAN, BAKI AZ 1025,
8 NOYABR PROSPEKTI, 163

Tel: +99412 404 2777
Faks: +99412 404 2772

info@affa.az
www.affa.az

Lithuania national team

LIETUVA



AFFA



# LİTVA MİLLİ KOMANDASI


19
10
22
LIETUVA
4
7
23
14

# Tomas Rajanauskas

Litva millisinin baş məşqçisi Tomas Rajanauskas azərbaycanlı futbol azarkeşlərinə tanış simadır. Onun futbolçu karyerası dövründə oynadığı ölkələrdən biri də məhz Azərbaycan olub. Belə ki, sabiq yarımmüdafiəçi 2007-ci ilin yanvarında keçdiyi "İnter"də (indiki "Şamaxı") il yarım çıxış edib, 2007/2008-ci illər mövsümündə Premyer Liqa çempionluğunu qazanıb. 37 yaşına qədər futbolçu karyerasını davam etdirən Rajanauskas ölkəmizlə yanaşı, Rusiya, Estoniya, İsveçrə, İsveç, Norveç, Yunanıstan və Kiprdə də legioner həyatı yaşayıb.

Litva millisində 42 oyun keçirən Tomas Rajanauskas 7 qoldan birini Azərbaycan millisinin qapısından keçirib. 1998-ci ilin iyun ayında bu komandalar Estoniyada yoldaşlıq görüşündə üz-üzə gəliblər. Litvalılar 18-ci dəqiqədə məhz Rajanauskasın sayəsində hesabı açsa da, millimiz Rasim Abuşov (30) və Vyaçeslav Lıçkinin (58) qolları ilə 2:1 hesablı qələbə qazanıb.

Rajanauskas 2014-cü ildə məşqçiliyə başlayıb. Latviyada "Dauqava"da qısa dönəm məşqçilik etdikdən sonra ölkəsinə qayıdıb. "Klaypedos" və "Şyaulyay"dakı fəaliyyətin ardından Rusiyada "Luç", Latviyada "Spartak" (Yurmala) və Belarusda "Torpedo-BelAZ"da baş məşqçinin köməkçisi olub.

2016-cı ildə "Pro" kateqoriyasını alan Rajanauskas 2021-ci ildə yenidən ölkəsinə dönüb. O, Litvanın U-19 millisinə baş məşqçilik etməklə yanaşı, əsas millidə də Valdas İvanauskasın köməkçisi təyin olunub. Komandanı hətta Şimali İrlandiya, Bolqarıstan və İtaliya ilə matçlarda baş məşqçi kimi meydana çıxarıb. A millidəki qısa fəaliyyətin ardından U-21 yığmasının sükanı arxasına keçib. Eyni anda U-15 millisinə də rəhbərlik edib.

Rajanauskas bu il yanvarın 13-də Litvanın qadınlardan ibarət millisinə baş məşqçi gətirilib.

**Rajanauskas 2014-cü ildə məşqçiliyə başlayıb**



# TOMAS RAŽANAUSKAS

Azerbaijani football fans know Tomas Ražanauskas, head coach of Lithuania Women's national team. One of the countries Ražanauskas played during his player career was Azerbaijan. Thus, the former midfielder played for FC Inter (now FC Shamakhi), where he moved in January 2007, for a year and a half, and won the season 2007/2008 of Azerbaijan Premier League championship. Ražanauskas, who continued his player career until the age of 37, was a foreigner player in Russia, Estonia, Switzerland, Sweden, Norway, Greece and Cyprus.

Tomas Ražanauskas played 42 games for Lithuania National team. One of his 7 goals for Lithuania was against Azerbaijan. In June 1998, these teams met in a friendly match in Estonia. Although the Lithuanians opened the score in the 18th minute thanks to Ražanauskas's goal, Azerbaijan won 2-1 thanks to the goals from Rasim Abushov (30) and Vyacheslav Litchkin (58).




Tomas Ražanauskas began his coaching career in 2014. Ražanauskas was appointed by Daugava Rīga as assistant manager. Ražanauskas returned to Lithuania and became an assistant manager at FC Klaipėdos and Šiauliai. Then, he was an assistant coach at FC Luch in Russia, FK Spartaks (Jurmala) in Latvia, and Torpedo-BelAZ Zhodino in Belarus.

Ražanauskas received an UEFA PRO License in 2016 and returned to his country in 2021. In addition to being head coach of the Lithuanian Under-19 team, he was also appointed as an assistant to Valdas Ivanauskas in the men's national A-team. Ražanauskas even managed the A-team in matches against Northern Ireland, Bulgaria and Italy as a head coach. After a short period in the senior national team, he managed the Under-21 team. At the same time, he also managed the Under-15 team. Ražanauskas was appointed head coach of the Lithuania Women's national team on January 13 this year.



## RAŽANAUSKAS STARTED COACHING IN 2014

# LİTVA MİLLİSİNİN HEYƏTİ

## QAPIÇILAR/GOALKEEPERS
*Meda Şeşkute*
*Karolina Curukova*

## MÜDAFİƏÇİLƏR/DEFENDERS
*Milda Liujinayte*
*Tereza Romanovskaya*
*Loreta Roqaçyova*
*Qreta Valikoniene*
*Laura Kubiliute*
*Auste Bernotayte*
*Auquste Andriyevskite*
*Lolita Jijite*
*Vestina Neverdauskayte*

## YARIMMÜDAFİƏÇİLƏR/MIDFIELDERS
*Mariya Qalkina*
*Alqimante Mikutayte*
*Erika Şupelite*
*Liuciya Vaytukaytite*
*Uqne Lazdauskayte*
*Ema Kriauçiunayte*
*Vilte Şvarceyte*
*Monika Qrikşeyte*
*Justina Blayeviçiuyte*
*Jemina Lekaviçiuyte*

## HÜCUMÇU/FORWARD
*Rimante Yonuşayte*

## Lithuania national team squad



# LİTVA MİLLİSİNİN YADDAQALAN NƏTİCƏLƏRİ

## *Memorable results of the Lithuania Women's national team*

Litva millisinin ilk rəsmi oyunu 1993-cü ilə təsadüf edib. Litvalılar avqustun 15-də Kaunasda Danimarkanı qəbul ediblər. Qarşılaşma qonaqların 11:0 hesablı qələbəsi ilə yekunlaşıb. Ancaq bu da Litvanın tarixində aldığı ən böyük məğlubiyyət deyil. Rəqibimiz 1998-ci il mayın 31-də Qlazqoda Şotlandiya ilə matçda qapısından 17 top buraxıb (0:17).
Litvalıların ən böyükhesablı qələbəsi 6 top fərqi ilə olub. Komanda 2 dəfə bunu bacarıb. 2007-ci ildə Latviya 6:0, 2021-ci ildə isə Livan 7:1 hesabı ilə məğlubiyyətə uğradılıb.

The Lithuania Women's national team played the first official international match in 1993. The Lithuanians hosted Denmark in Kaunas on August 15. The match ended to the visitors 11-0. However, this is not the biggest defeat in Lithuanian women's football history. Lithuanians conceded 17 goals (0-17) in the match against Scotland in Glasgow on May 31, 1998.
The Lithuanians' biggest victory was by a difference of 6 goals. The team has managed to do this twice. In 2007, they defeated Latvia 6-0 as well in April 2021, Lithuania achieved a significant victory by defeating Lebanon 7-1.

# LİTVA MİLLİSİNİN

## SON 5 OYUNU

Last 5 matches of the Lithuania national team

| | | | | |
|---|---|---|---|---|
| 16.07.2024 | AÇ-2025 | Litva - Gürcüstan | 0:1 | Druskininkay, Litva |
| 24.10.2024 | Baltik Kuboku | Estoniya - Litva | 2:2 (Pen. 3:1) | Riqa, Latviya |
| 27.10.2024 | Baltik Kuboku | Litva- Farer adaları | 1:2 | Riqa, Latviya |
| 25.02.2025 | UEFA Millətlər Liqası-2025 | Monteneqro - Litva | 3:1 | Nikşiç, Monteneqro |
| 04.04.2025 | UEFA Millətlər Liqası-2025 | Litva - Azərbaycan | 0:2 | Vilnüs, Litva |

## SON 5 RƏSMİ OYUNU

The last 5 official games of the Lithuania national team

| | | | | |
|---|---|---|---|---|
| 09.04.2024 | AÇ-2025 | Litva – Kipr | 1:0 | Vilnüs, Litva |
| 12.07.2024 | AÇ-2025 | Kipr – Litva | 1:2 | Axna, Kipr |
| 16.07.2024 | AÇ-2025 | Litva – Gürcüstan | 0:1 | Druskininkay, Litva |
| 25.02.2025 | UEFA Millətlər Liqası-2025 | Monteneqro - Litva | 3:1 | Nikşiç, Monteneqro |
| 04.04.2025 | UEFA Millətlər Liqası-2025 | Litva - Azərbaycan | 0:2 | Vilnüs, Litva |

**HAZIRKI MÖVQEYİ:** *106-CI YER*
**ƏN YAXŞI MÖVQEYİ:** *60-CI YER (DEKABR 2004-CÜ İL, MART 2005-Cİ İL, DEKABR 2005-Cİ İL, SENTYABR 2006-CI İL)*
**ƏN ZƏİF MÖVQEYİ:** *108-Cİ YER (APREL 2021-Cİ İL)*

**CURRENT POSITION:** *106TH PLACE*
**BEST POSITION:** *60TH (DECEMBER 2004, MARCH 2005, DECEMBER 2005, SEPTEMBER 2006)*
**LOWEST POSITION:** *108TH (APRIL 2021)*

INSIDE FIFA



# SEVİNC CƏFƏRZADƏ

"Yeganə gözləntimiz qələbədir"
"Our only expectation is victory"

**AZE** QADINLARDAN İBARƏT AZƏRBAYCAN MİLLİSİNİN KAPİTANI SEVİNC CƏFƏRZADƏ ARTIQ 15 İLDİR KOMANDANIN FORMASINI GEYİNİR. 31 YAŞLI HÜCUMÇU CARİ MİLLƏTLƏR LİQASINDA KEÇİRİLƏN 3 OYUNUN HAMISINDA ƏSAS HEYƏT ÜZVÜ OLUB. RUSİYANIN "KRASNODAR" KLUBUNUN OYUNÇUSU AFFA-NIN MƏTBUAT XİDMƏTİNİN SUALLARINI CAVABLANDIRIB. O, LİTVA İLƏ GÖRÜŞÜN BÖYÜK ÖNƏM KƏSB ETDİYİNİ BİLDİRİB.

**– Qarşıda milli komandamızı Litva ilə vacib oyun gözləyir. Həmin görüşdən gözləntiləriniz nədir?**
– Yeganə gözləntimiz qələbədir. Çünki bizi B Liqasına yalnız qələbə yüksəldə bilər. Meydanda əlimizdən gələni edəcəyik ki, 3 xalı qazana bilək.

**– Qrupda birinci yeri tutmaq üçün Litva ilə oyunda mümkün qədər çox qol vurmaq lazımdır. Bu, komandada əlavə təzyiq yaratmayacaq?**
– İlk növbədə qələbəni təmin etməliyik. Daha sonra top fərqini artırmaq üçün mübarizə aparmaq lazımdır ki, mövqeyimizi yaxşılaşdıraq. Düşünmürəm ki, bu, komandaya əlavə təzyiq yaradacaq. Bizim əsas işimiz meydanda sona qədər mübarizə aparmaq və istədiyimiz nəticəyə nail olmaqdır. Amma bunun asan olmayacağını yaxşı bilirik. Buna görə də oyuna maksimum səviyyədə hazırlaşırıq.

**– Ümumiyyətlə, millimizin UEFA Millətlər Liqasının cari mövsümündəki çıxışını necə qiymətləndirirsiniz?**
– Çox yaxşı qiymətləndirirəm. Komandamız bəzi oyunlarda əsas futbolçular olmadan mübarizə aparmalı olsa da, uğurlu nəticələr əldə etdiyimizi düşünürəm. Ancaq işimiz hələ bitməyib, davam etməliyik. Qarşıdakı matçın nə qədər vacib olduğunu hər birimiz yaxşı anlayırıq.

**– Kapitan kimi paltardəyişmə otağında komandaya necə motivasiya verirsiniz?**
– Bəzən motivasiyanı yalnız paltardəyişmə otağına saxlamıram. Elə hallar olur ki, onları məşqlərdə və ya oyundan əvvəl toplantılarda etməyə çalışıram ki, oyunçularımız maksimum hazır və motivasiyalı olsunlar. Paltardəyişmə otağında da müəyyən söhbətlərimiz olur. Hər görüşün nə qədər önəmli olduğunu komanda olaraq bilirik, ancaq bunu bir daha hər kəsin diqqətinə çatdırıram. Bütün komanda yoldaşlarıma güvənirəm. Hamımızın məqsədi ölkəmizi layiqincə təmsil etməkdir.

**– Bir az da özünüzdən danışaq. Futbola necə gəlmisiniz? Bu idmanla neçə ildir məşğulsunuz?**
– Artıq 15 ildir milli komandanın üzvüyəm. Futbola qardaşımla və oğlanlarla birlikdə oynayaraq başlamışam. Qardaşımın və ailəmin böyük dəstəyi sayəsində bu gün bu səviyyəyə qədər gəlib çatmışam.

**- Uzun müddətdir milliyə dəvət alırsınız. Sizin üçün ən yaddaqalan oyun hansı olub?**
– Milli komandanın hər oyunu mənim üçün vacib və önəmlidir. Çünki hər qarşılaşmada tökdüyüm alın tərim var. Milli formanı geyinərək keçirdiyim hər matç mənim üçün əzizdir – fərq etməz, qələbə qazandıq, ya da məğlub olduq. Millidə çıxış etmək hər bir futbolçu üçün qürurdur.

**– Bəs ilk oyununuzu xatırlayırsınız?**
– Əlbəttə, 2010-cu ildə - 16 yaşımda əsas heyətin üzvü kimi Uels millisinə qarşı oynamışdım.

**– Karyeranızda vurduğunuz ən vacib qol hansıdır?**
– Mənim üçün vacib olmayan qol yoxdur. Vurduğum hər qol əziz və önəmlidir. Çünki hər qolun, hər məhsuldar ötürmənin öz gözəlliyi və özəlliyi var.

**– Komandanın hər hansı oyunöncəsi ritualları varmı?**
– Qarşılaşmadan əvvəl milli musiqilərimizə və vətənpərvər ruhda mahnılara qulaq asırıq. Xüsusi bir ritualımız olmasa da, hər kəsin etdiyi dua var. Həmişə Allaha şükr edib, dualarımızı edirik. Bunun bizim üçün çox vacib və əhəmiyyətli olduğunu düşünürəm.

**– Futbola başlamaq istəyən gənc qızlara nə tövsiyə edərdiniz?**
– Öz üzərlərində çox çalışsınlar. Kənardan deyilən mənfi fikirlərə qulaq asmasınlar. Qulaq asdıqları insanlar yalnız valideynləri olsun. Təhsillərinə də önəm versinlər və heç vaxt qarşılarına qoyduqları məqsədlərdən imtina etməsinlər. Daim mübariz, əzmkar olsunlar. Uğura gedən yol heç vaxt asan olmur. Ona görə də dözümlü olsunlar. Çəkdikləri əziyyətin qarşılığını bir gün ən gözəl şəkildə alacaqlar.

**ENG** THE CAPTAIN OF AZERBAIJAN WOMEN'S NATIONAL TEAM, SEVINJ JAFARZADA, HAS BEEN WEARING THE TEAM'S JERSEY FOR 15 YEARS. THE 31-YEAR-OLD FORWARD HAS BEEN A MEMBER OF THE STARTING LINEUP IN ALL THREE MATCHES HELD IN THE CURRENT NATIONS LEAGUE. SEVINJ JAFARZADA WHO PLAYS AS A FORWAD FOR THE RUSSIAN FC KRASNODAR, ANSWERED QUESTIONS FROM THE AFFA PRESS SERVICE. SHE NOTED THAT THE MATCH AGAINST LITHUANIA IS OF GREAT IMPORTANCE.

**– Azerbaijan has an important match against Lithuania ahead of it. What are your expectations from that match?**

– Our only expectation is victory. Because only victory can promote us to League B. We will do our best on the pitch to earn 3 points.

**– To take first place in the group, Azerbaijan need to score as many goals as possible in the game against Lithuania. Won't this create additional pressure on the team?**

– First of all, we need to secure a victory. Then we need to fight to increase the goal difference in order to improve our position. I don't think this will create additional pressure on the team. Our main task is to fight until the end on the pitch and achieve the desired result. But we know very well that it will not be easy. That is why we are preparing for the game at the maximum level.

**– In general, how do you assess the performance of Azerbaijan in the current season of UEFA Nations League?**

– I assess it very highly. Although our team had to fight without key players in some games, I think we achieved successful results. However, our work is not over yet, we must continue. Each of us understands very well how important the upcoming match is.

**– How do you motivate the team in the dressing room as a captain?**

– Sometimes I don't keep motivation only in the dressing room. There are situations that I try to solve during the trainings or during the pre-match meetings so that our players are maximally prepared and motivated. We also have certain conversations in the dressing room. As a team, we know how important each match is, but I want to bring this to everyone's attention once again. I trust all my teammates. The goal of all of us is to represent our country worthily.

**– Let's talk a little about yourself. How many years have you been playing football?**

– I have been a member of the national team for 15 years now. I started playing football with my brother and the boys. Thanks to the great support of my brother and family, I have reached this level today.

**- As you said, you have been called up to the national team for a long time. What was the most memorable match for you?**

– Every match of the national team is important and significant for me. Every match I have played wearing the national team's jersey is dear to me – it doesn't matter if we won or lost. Playing for the national team is an honor for every football player.

**– Do you remember your first match?**

– Of course I do. In 2010, when I was 16, I played against Wales.

**– What is the most important goal you have scored in your career?**

– There is no goal that is not important to me. Every goal I scored is precious and important. Because every goal, every assist has its own beauty and uniqueness.

**– Does the team have any pre-match rituals?**

– Before the match, we listen to our national music and patriotic songs. Although we don't have a special ritual, there is a prayer that everyone does. We always thank God and say our prayers. I think these are very important and significant for us.

**– What would you recommend to young girls who want to play football?**

– They should work hard on themselves. They should not listen to negative opinions. The only people they listen to should be their parents. They should also pay attention to their education and never give up on the goals they set for themselves. They should always be courageous and determined. The road to success is never easy. Therefore, they should be patient. One day, they will be rewarded for their suffering in the best way possible.


AFFA
9




# NƏRGİZ ƏLİYEVA

"Hədəfim ən yaxşı klublardan birində oynamaqdır"

"My goal is to play in one of the best clubs"

**AZE** QADINLARDAN İBARƏT AZƏRBAYCAN MİLLİ KOMANDASININ CARİ MİLLƏTLƏR LİQASINDA UĞURLU NƏTİCƏLƏR QAZANMASINDA MÜSTƏSNA XİDMƏTİ OLANLARDAN BİRİ DƏ QAPIÇI NƏRGİZ ƏLİYEVA OLUB. 23 YAŞLI QOLKİPER HƏM MONTENEQRO İLƏ HƏR İKİ (0:0, 1:1) MATÇDA, HƏM DƏ LİTVA İLƏ (2:0) SƏFƏR GÖRÜŞÜNDƏ YÜKSƏK PERFORMANSLA DİQQƏT ÇƏKİB. XÜSUSƏN DƏ, MONTENEQRO YIĞMASINA QARŞI NİKŞİÇDƏ KEÇİRİLƏN QARŞILAŞMANIN SON DƏQİQƏLƏRİNDƏKİ QURTARIŞLARI İLƏ MİLLİMİZİN VACİB 1 XAL QAZANMASINDA BÖYÜK ROL OYNAYIB.

TÜRKİYƏNİN "FATİH VƏTƏN" KLUBUNDA LEGİONER HƏYATI YAŞAYAN NƏRGİZ ƏLİYEVANIN ÜZƏRİNƏ LİTVA İLƏ SON MATÇDA DA BÖYÜK İŞ DÜŞƏCƏK. QAPIÇI AFFA-NIN MƏTBUAT XIDMƏTİNƏ MÜSAHİBƏSİNDƏ BUNUN ÖHDƏSİNDƏN GƏLƏCƏYİNƏ INANDIĞINI BİLDİRİB.

**- Millətlər Liqasının qrup mərhələsində son oyununuzu Litvaya qarşı keçirəcəksiniz. Bu matçdan nə gözləmək olar?**

- Litva ilə matçda yalnız qələbə qazanmaq barədə düşünürük. Komanda olaraq sadəcə buna köklənmişik. Tək düşüncəmiz 3 xal qazanmaqdır.

**- Həlledici görüş olduğundan, maraq böyükdür. Bu amil komandaya əlavə motivasiya verir, yoxsa, psixoloji cəhətdən mənfi təsir göstərir?**

- Bəli, qrupda sonuncu oyunumuzu keçirəcəyik. Əvvəlki qarşılaşmalarda olduğu kimi, bu matça da yüksək motivasiya ilə hazırlaşırıq. Fikrimcə, psixoloji cəhətdən heç bir mənfi təsiri yoxdur.

**- Son oyunlar öncəsi Monteneqro cüzi üstünlüyə malikdir. Qrupda əvvəlki matçlara nəzər yetirdikdə, hansı nəticə sizi daha çox məyus etdi?**

- Bizi məyus edən nəticə Monteneqro ilə səfər matçı oldu. Qələbəyə çox yaxın idik, lakin son dəqiqələrdə qol buraxdıq. Bu da 2 xal itirməyimizə səbəb oldu.

**- Həmin görüşdə qələbəni son anda əldən versəniz də, ardıcıl qurtarışlarla hər kəsin rəğbətini qazandınız. Bu özünəinam haradan qaynaqlanırdı?**

- Düşünürəm ki, işimi sevərək gördüyüm və çox istəkli olduğum üçün özünəinamlı idim. Bütün oyunlarda bu cür çıxış edərək, komandama xeyir vermək istəyirəm.

**- Litva ilə matçda çox qol vurmaqla yanaşı, qol buraxmamaq da önəmli olacaq. Özünüzü buna hazır sayırsınız?**

- Əlbəttə ki, qol buraxmamaq vacibdir. Amma bu, futboldur, bəzən qol vurursan, bəzən buraxırsan. O ki qaldı mənə, özümü tam hazır hiss edirəm.

**- Adətən futbola yeni gələn uşaqlar qol vurmaq arzusunda olurlar. Siz necə oldu ki, qapıçı mövqeyini seçdiniz?**

- Qaçmaq mənə çətin gəldiyi üçün qapıçı olmağı seçdim (gülür). Amma indi qapıda dayanmağın daha çətin olduğunu deyə bilərəm. Çünki qolkiper böyük məsuliyyət daşıyır.

**- Yəqin ki, dünya futbolunu izləyirsiniz. Uşaqlıq kumiriniz kimdir?**

- Bəli, izləyirəm. Bir çoxları kimi, mənim də kumirim var. Bu, "Barselona" klubunun almaniyalı qapıçısı Mark-Andre ter Ştegendir.

**- Hazırda Türkiyədə legioner həyatı yaşayırsınız. Klub karyeranızla bağlı ən böyük hədəfiniz nədir?**

- Konkret ad çəkməkdə çətinlik çəkirəm. Amma hədəfim ən yaxşı klublardan birində oynamaqdır.

**- Bəs milli ilə bağlı ən böyük arzunuz nədir?**

- Hər bir azərbaycanlı kimi, mənim də arzum milli formanı layiqincə geyinmək, uzun illər bu komandanın şərəfini qorumaq və yaxşı iz buraxmaqdır.

ENG NARGIZ ALIYEVA, WHO PLAYS FOR AZERBAIJAN WOMEN'S NATIONAL TEAM, HAS BEEN INSTRUMENTAL IN THE TEAM'S SUCCESS IN THE CURRENT SEASON OF UEFA NATIONS LEAGUE. THE 23-YEAR-OLD GOALKEEPER HAS BEEN OUTSTANDING IN BOTH MATCHES AGAINST MONTENEGRO (0-0, 1-1) AND DURING THE AWAY MATCH AGAINST LITHUANIA (2-0). IN PARTICULAR, SHE PLAYED A MAJOR ROLE WITH HER EXCELLENT SAVES IN HELPING THE TEAM TO EARN A CRUCIAL POINT IN THE FINAL MINUTES OF THE MATCH AGAINST MONTENEGRO IN NIKŠIĆ.

NARGIZ ALIYEVA, WHO IS A FOREIGNER IN THE TURKISH CLUB FATIH VATAN S. K., WILL HAVE A BIG TASK IN THE MATCH AGAINST LITHUANIA. THE PLAYER EXPRESSED HER CONFIDENCE IN HER ABILITY TO COPE WITH IT IN HER INTERVIEW WITH THE AFFA PRESS SERVICE.

**- You will play the last match in the UEFA Nations League group stage against Lithuania. What you expect from this match?**
- We are only thinking about winning the match against Lithuania. As a team, we are just focused on that. Our only thought is to earn 3 points.

**- Since it is a decisive match, the game is of great interest. Does this factor give the team additional motivation or does it have a negative psychological effect?**
- Yes, we will play the last match in the group. As in the previous matches, we are preparing for this match with high motivation. In my opinion, there is no negative psychological effect.

**- Montenegro has a slight advantage going into the final games. Looking back at the previous matches in the group, which result disappointed you the most?**
- The match that disappointed us was the away match against Montenegro. We were very close to winning, but we conceded a goal in the last minutes. And as a result, we lost 2 points.

**- Even though the team lost that match, you won everyone's sympathy with your consecutive saves. Where did this self-confidence come from?**
- I think I was self-confident because I loved my job and had a great desire. I want to do my team good by performing like this in all games.

**- It will be important not to concede goals, but also to score in the match against Lithuania. Do you consider yourself ready for this?**
- Of course, it is important not to concede goals. But it is football, sometimes you can score goals, sometimes you concede goals. As for me, I feel completely ready.

**- Usually, new players dream of scoring goals. How did you end up choosing the goalkeeper position?**
- I chose to be a goalkeeper because it was hard for me to run (laughs). But now I can say that it is more difficult to goaltend. Because the goalkeeper has a big responsibility.

**- You probably are interested in world football. Who is your childhood idol?**
- Yes, I am. Like many others, I have an idol. This is Marc-Andre ter Stegen, a German professional goalkeeper who plays for La Liga club Barcelona.

**- You are currently a foreigner in Turkey. What is your biggest goal regarding your club career?**
- It is difficult for me to name a specific one. But my goal is to play for one of the best clubs.

**- What is your biggest dream about the national team?**
- Like every Azerbaijani, my dream is to wear the national shirt with dignity, to protect the honor of this team for many years, and to leave a good mark.



# NİGAR MİRZƏLİYEVA

"Mümkün qədər böyük hesabla qalib gəlməliyik"

"We have to win by as big a score as possible"

**AZE** DÜNYA FUTBOLUNDA QOL VURAN MÜDAFİƏÇİLƏR DAİM DİQQƏT MƏRKƏZİNDƏ OLUB, BU XÜSUSİYYƏTLƏRİNƏ GÖRƏ FƏRQLƏNİBLƏR. QADINLARDAN İBARƏT AZƏRBAYCAN MİLLİSİNİN MÜDAFİƏÇİSİ NİGAR MİRZƏLİYEVA DA ONLARDAN BİRİDİR. MİLLİMİZİN APARICI ÜZVLƏRİNDƏN OLAN 23 YAŞLI MƏRKƏZ MÜDAFİƏÇİSİ STANDART VƏZİYYƏTLƏR ZAMANI RƏQİB ÜÇÜN ƏN TƏHLÜKƏLİ OYUNÇULARIMIZDAN BİRİNƏ ÇEVRİLİR. ÖTƏN İL AÇ-2025-İN SEÇMƏ MƏRHƏLƏSİNDƏ TÜRKİYƏ YIĞMASI ÜZƏRİNDƏ QƏLƏBƏNİN MEMARI OLAN MİRZƏLİYEVA BU İLİN APRELİNDƏ LİTVA İLƏ SƏFƏRDƏKİ QARŞILAŞMADA DA FƏRQLƏNMƏYİ BACARMIŞDI.

GƏNC FUTBOLÇU AFFA-NIN MƏTBUAT XİDMƏTİNƏ MÜSAHİBƏSİNDƏ BAKIDAKI MATÇDA DA BU ƏNƏNƏSİNƏ SADİQ QALMAQ ARZUSUNDA OLDUĞUNU GİZLƏTMƏYİB.

**- Qrup mərhələsində son oyununuzu evdə Litva yığmasına qarşı keçirəcəksiniz. Bu matç sizin üçün nə dərəcədə önəm kəsb edir?**

- Litva ilə görüş bizim üçün çox vacibdir. Mümkün qədər böyük hesabla qalib gəlməliyik. Qrupda birinci yeri tutmaq üçün maksimum sayda qol vurmağa çalışacağıq. Özümə və komandamıza güvənirəm. Bunu bacaracaq gücümüz var.

**- Qrup qalibini Litva ilə oyunlar müəyyənləşdirəcək. Kimin birincilik şansı daha çoxdur: Azərbaycan, yoxsa Monteneqro millisinin?**

- Monteneqro güclü komandadır. Yüksək səviyyədə çıxış etməyi bacaran kollektivləri var. Əminəm ki, Litva ilə matçda qələbə qazanmağa çalışacaqlar. Amma bizi indi yalnız öz oyunumuz maraqlandırır. Hədəfimizə çatmaq üçün əlimizdən gələni edəcəyik.

**- İlk oyunda Litvanı məğlub etdiniz. Rəqibin hansı xüsusiyyətlərini vurğulaya bilərsiniz?**

- Litva zəif komanda deyil. Aqressiv oynayırlar, meydanda nəsə etməyə çalışırlar. Ancaq bizim üstün cəhətlərimiz daha çoxdur. Komanda olaraq daha çox inkişaf etmişik. Bakıdakı görüşdə qələbə qazanacağımıza inanıram.

**- Vilnüsdəki qarşılaşmada ikinci qolun müəllifi oldunuz. Bu dəfə komandamıza daha çox qolun lazım olacağını nəzərə alsaq, yenə fərqlənmək şansınızı necə görürsünüz?**

- İlk növbədə deyim ki, Litvada 2:0 hesablı qələbə qazandığımız və qollardan birinin müəllifi olduğum üçün çox xoşbəxtəm. Qol vurmaq xoş haldır. Əsas odur ki, komandama köməyim dəydi. Ümid edirəm ki, Bakıdakı matçda da belə şans yaranar və yenə qol vuraram.

**- Yəqin ki, bu cür vacib oyunda azarkeş amili sizin üçün böyük əhəmiyyət kəsb edir. Azarkeşlərə çağırışınız nə olardı?**

- Azarkeşlərin oyunlarımıza gəlmələri bizim üçün stimuldur. Belədə daha da həvəslənir, ikiqat əzmlə qələbə qazanmağa çalışırıq. Qarşıdakı oyunda tribunaların dolmasını çox istərdim. Azarkeşlər bu vacib görüşdə komandanı tək qoymasınlar və biz də onları qələbə ilə sevindirək.

**- Hələ cəmi 23 yaşınız var. Dünyanın hansı klubunda oynamaq istərdiniz?**

- Hazırda karyeramı "Zenit"də davam etdirirəm. Gələcəkdə İngiltərə, İspaniya və Fransa kimi ölkələrdə oynamaq istəyirəm.

**ENG** DEFENDERS WHO SCORE GOALS HAVE ALWAYS BEEN IN THE SPOTLIGHT IN WORLD FOOTBALL AND THEY HAVE DISTINGUISHED THEMSELVES FOR THESE QUALITIES. NIGAR MIRZALIYEVA, THE DEFENDER OF AZERBAIJAN WOMEN'S NATIONAL TEAM, IS ONE OF THEM. THE 23-YEAR-OLD CENTRAL DEFENDER, ONE OF THE LEADING MEMBERS OF AZERBAIJAN WOMEN'S TEAM, BECOMES ONE OF THE MOST DANGEROUS PLAYERS FOR THE OPPONENTS. MIRZALIYEVA, WHO WAS THE ARCHITECT OF THE VICTORY OVER TURKEY IN THE 2015 UEFA EURO QUALIFYING ROUND LAST YEAR, ALSO MANAGED TO DISTINGUISH HERSELF IN THE AWAY MATCH AGAINST LITHUANIA IN APRIL OF THIS YEAR.

IN AN INTERVIEW WITH THE AFFA PRESS SERVICE, THE YOUNG PLAYER DID NOT HIDE HER DESIRE TO CONTINUE THIS TRADITION IN THE MATCH IN BAKU.

**- Azerbaijan to play the last game in the group stage against Lithuania at home. How important is this match for you?**

- The match against Lithuania is very important for us. We need to win by as big a score as possible. We will try to score as many goals as possible to take first place in the group. I am confident in myself and my team. We have the strength to do it.

**- The group winner will be determined after the matches against Lithuania. Who has a better chance of winning: Azerbaijan or Montenegro?**

- Montenegro is a strong team. They have a team that can perform at a high level. I am sure that they will try to win the match against Lithuania. But now we are only interested in our own game. We will do our best to achieve our goal.

**- Azerbaijan defeated Lithuania in the first match. What characteristics of the opponent can you highlight after the match?**

- Lithuania is not a weak team. They play aggressively, they try to do their best on the pitch. But we have more advantages. We have developed more as a team. I believe that we will win the match in Baku.

**- You scored the second goal in the match in Vilnius. Considering that Azerbaijan need more goals this time, how do you see your chances of scoring again?**

- First of all, I'm very happy that we won 2-0 in Lithuania and that I scored one of the goals. It's nice to score a goal. The main thing is that I helped my team. I hope that I will have the same chance in the match in Baku and score another goal.

**- Probably, the fan factor is of great importance to you in such an important game. What would be your appeal to the fans?**

- The fact that the fans come to our games is a stimulus for us. This makes us even more motivated, and we try to win with double determination. I would really like the stands to be full in the upcoming game. The fans should not leave the team alone in this important match, and we should please them with a win.

**- You are still only 23 years old. Which club in the world would you like to play for?**

- I am currently continuing my career at Zenit. In the future, I want to play in countries such as England, Spain and France.




# Siyasət Əsgərov

**"Birmənalı şəkildə qələbə qazanmalıyıq"**

**"We have to win unequivocally"**

**AZE** Azərbaycan milli komandasının baş məşqçisi Siyasət Əsgərov AFFA-nın mətbuat xidmətinə açıqlamasında Litva yığması ilə keçiriləcək oyunun önəmindən bəhs edib. 37 yaşlı mütəxəssis UEFA Millətlər Liqasında qrup mərhələsinin son matçı öncəsi onu narahat edən bəzi məqamlardan bəhs edib.

Baş məşqçinin fikrincə, qrupda son görüşə Monteneqro yığmasının çıxması rəqib üçün üstünlükdür: "Çox önəmli oyuna çıxacağıq. Son matçlar öncəsi həm bizim, həm də Monteneqro yığmasının aktivində 5 xal var. Monteneqro ilə top fərqimiz eyni olsa da, onlar bizdən 1 qol çox vurublar. Üç komandadan ibarət qrupda yer almağımız heç yaxşı olmadı. Çünki Litva ilə əvvəlcə biz qarşılaşacağıq, daha sonra Monteneqro. Yəni Monteneqro millisi bizim oyunun nəticəsini bilərək meydana çıxacaq. Digər tərəfdən Türkiyə çempionatı mayın 5-də başa çatıb. Orada çıxış edən futbolçularımız təlim-məşq toplanışına qədər onlara verdiyimiz fərdi hazırlıq proqramı üzərində çalışdılar. İki həftə oyunsuz qalmaları bizi narahat edir. Bütün bunları nəzərə alaraq, toplanışa mayın 20-də başladıq. Rusiyada isə çempionat fərqli formatda keçirilir. Orada oynayan futbolçularımız kollektivə bir qədər gec qoşuldular".

Siyasət Əsgərov Litva ilə matçda mümkün qədər çox qol vurmağın böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb: "Litva ilə səfərdə qarşılaşmışıq, hər iki komanda bir-birini yaxşı tanıyır. Evdə oynamağımız üstünlükdür. Rəqibi həm komanda olaraq, həm də oyunçularını fərdi şəkildə təhlil etmişik. Güclü və zəif cəhətlərini bilirik. Birmənalı şəkildə qələbə qazanmalıyıq. Ən vacibi bunu mümkün qədər böyükhesablı fərqlə əldə etməkdir. Bu, istər-istəməz komandamıza təzyiq yaradacaq. Həmçinin, evdə çıxış etmək əlavə məsuliyyətdir. Buna rəğmən ilk dəqiqədən hakimin son fitinə qədər səbrlə, tələsmədən oynamalıyıq. Belə etməsək, bizə çətin olar. Maksimum dərəcədə istəklə mübarizə aparmaq və xarakter göstərmək də mühüm amildir".

Millimizin baş məşqçisi azarkeşlərə səslənərək, həlledici görüşdə onlardan dəstək istəyib: "Azarkeşlərimizə səslənmək istəyirəm. Sosial mediada komandamızla bağlı müsbət fikirlər yazılır. Ölkəmizdə qadın futboluna maraq ildən-ilə artır. Bu, bizi çox sevindirir. Həmin insanlardan xahişim budur ki, Litva ilə görüşdə komandamızı yalnız qoymasınlar, stadiona gəlib bizi dəstəkləsinlər. Azarkeşlərə ehtiyacımız var. Onlar tribunada olsalar və bir yumruq kimi birləşsək, qarşımıza qoyulan məqsədə çatarıq".

**ENG** Siyasat Asgarov, head coach of Azerbaijan Women's national team spoke to AFFA's press service about the importance of the match against Lithuania. The 37-year-old specialist spoke about some of the points that concern him before the final match of the group stage in the UEFA Nations League.

According to head coach, the fact that the Montenegro will play the last match in the group is an advantage for the opponent: "We will play a very important game. Before the last matches, both Azerbaijan and Montenegro have 5 points. Although we have the same goal difference with Montenegro, they scored 1 goal more than us. It was not good for us to be in a group of three teams. Because we will play against Lithuania first, and then Montenegro. That is, Montenegro will come out on the pitch knowing the result of our game. On the other hand, the Turkish championship ended on May 5. Our players who played there worked on the individual training program we gave them until the training camp. We are worried that they will be without a game practice for two weeks. Considering all this, we started the training camp on May 20. In Russia, the championship is held in a different format. Our players who play there joined the team a little later."

Siyasat Asgarov emphasized the importance of scoring as many goals as possible in the match against Lithuania: "We faced Lithuania away, both teams know each other well. Playing at home is an advantage. We have analyzed the opponent both as a team and as individual players. We know their strengths and weaknesses. We have to win unequivocally. The most important thing is to achieve this by as large a margin as possible. This will inevitably put pressure on our team. Also, playing at home is an additional responsibility. Despite this, we must play patiently and no fuss from the first minute until the referee's final whistle. Otherwise, it will be difficult for us. Fighting with maximum desire and showing character is also an important element."

Head coach of Azerbaijan Women's team addressed the fans and asked for their support during the decisive match: "I want to address our fans. Positive thoughts are being written about our team on social media. Interest in women's football in our country is growing year by year. This makes us very happy. My request to those people is that they should not leave our team alone during the match against Lithuania, but come to the stadium and support us. We need the fans. If they are on the stands and we unite as one, we will achieve the goal we have set."



# ABOUT THE STADIUM

# STADİON HAQQINDA

**AZE** Azərbaycan və Litva millilərinin üz-üzə gələcəyi "Bayıl Arena" AFFA tərəfindən inşa edilib. Arenanın açılış mərasimi 2012-ci ilin sentyabrına təsadüf edib. Həmin il 3200 tamaşaçı tutumuna malik olan stadionda 17 yaşadək qadınlardan ibarət komandalar arasında dünya çempionatının final mərhələsinin bir neçə oyunu təşkil olunub. Müxtəlif yaş qrupları üzrə millilərimiz burada beynəlxalq yoldaşlıq görüşləri keçiriblər.

Hazırda "Səbail" rəqiblərini "Bayıl Arena"da qəbul edir.

**ENG** Bayil Arena, where the Women's national teams of Azerbaijan and Lithuania will play, was built and operated by AFFA. The opening ceremony of the Arena took place in September 2012 and the stadium has a capacity of 3,200 spectators. The stadium was one of the venues for the group stage of the 2012 FIFA Under-17 Women's World Cup. The venue hosted some international friendly matches of Azerbaijan national teams of various age groups.

Currently, FC Sabail to play the club's home matches at Bayil Arena.

AFFA

LIETUVA

# Azerbaijan national team






# AZƏRBAYCAN MİLLİ KOMANDASI



# Siyasət Əsgərov

Azərbaycan milli komandasının baş məşqçisi Siyasət Əsgərov qadın futbolunda kifayət qədər zəngin təcrübəyə malikdir. 2019-cu ildən millimizə rəhbərlik edən 37 yaşlı mütəxəssis 2007-ci ildən məşqçiliklə məşğuldur.

Futbolçu karyerasını erkən başa vuran S. Əsgərov 20 yaşında MOİK-də məşqçilik fəaliyyətinə başlayıb. "Hərbçilər"in əvəzedicilərinin baş məşqçisi olduqdan sonra 2010-cu ildə Premyer Liqada MOİK-in köməkçi məşqçisi kimi çalışıb.

Onun qadın futbolu ilə ilk tanışlığı 2010-cu ilə təsadüf edib. 2012-ci ildə Bakıda 17 yaşadək qadın futbolçulardan ibarət milli komandalar arasında dünya çempionatının final mərhələsi təşkil olunub. Əsgərov turnirin seçmə və final mərhələsində U-17 millimizin məşqçi korpusunda yer alıb. 2012-2013-cü illərdə qadınlardan ibarət U-19 millimizdə köməkçi məşqçi kimi fəaliyyət göstərən mütəxəssis 2014-cü ildə U-17-yə qayıdıb. Bu dəfə o, 2018-ci ilə qədər komandanın baş məşqçisi olub. Həmçinin U-15 millimizi də çalışdırıb.

Siyasət Əsgərov daha sonra kişi futboluna qayıdıb. Əvvəlcə "Səbail"in U-17 komandasında köməkçi, 2018-19 mövsümündə U-19 komandasında, ardından isə əvəzedicilərdə baş məşqçi kimi çalışıb.

2019-cu ildə yenidən qadın futbolunda çalışmağa davam edib. Bu dəfə A millinin sükanı arxasına gətirilib. Əsgərov 2022-23 mövsümündə Türkiyənin "Fomget" klubunun baş məşqçisi təyin olunub. Onun rəhbərliyi altında komanda Türkiyə çempionluğunu qazanıb. 2023-24 mövsümündə isə millimiz tarixi uğura imza atıb. Belə ki, qadınlarımız UEFA Millətlər Liqasında yer aldığı qrupda 1-ci yeri tutaraq, B Liqasına vəsiqə qazanıb. Komandamız C Liqasının 3-cü qrupunu məğlubiyyətsiz başa vurub, Monteneqro, Kipr və Farer adları ilə matçlarda 18 mümkün xaldan 16-nı toplayıb.

Millimiz növbəti turnirin B Liqasında qüvvəsini sınayıb, hətta Avropa çempionatının final mərhələsinə vəsiqə qazanmağa çox yaxın olub. Lakin komanda pley-offda Portuqaliya yığmasına məğlub olub.

Siyasət Əsgərov 2024-cü il fevralın 1-də qadınlardan ibarət "Neftçi" klubunun baş məşqçisi təyin olunub. Paralel olaraq həm millini, həm də "Neftçi"ni çalışdıran 37 yaşlı mütəxəssis "ağ-qaralar"a həm ötən, həm də cari mövsüm Azərbaycan çempionluğunu qazandırıb. "Pro" kateqoriyalı mütəxəssis ötən il UEFA Çempionlar Liqasına komanda çıxaran ilk baş məşqçi kimi Azərbaycanın qadın futbolu tarixinə düşüb. "Neftçi" növbəti mövsüm də Əsgərovun rəhbərliyi altında qitənin ən nüfuzlu klub turnirində mübarizə aparacaq.



# SIYASAT ASGAROV

Head coach of Azerbaijan Women's national team, Siyasat Asgarov, has quite a rich experience in women's football. The 37-year-old specialist, who has been managing Azerbaijan Women's national team since 2019, has been engaged in coaching since 2007.

S. Asgarov, who ended his player career early, began coaching at MOIK at the age of 20. After becoming a head coach of the FC Harbchilar B-team, he worked as an assistant coach of MOIK in the Premier League in 2010.

His first acquaintance with women's football coincided with 2010. In 2012, the final stage of the FIFA Under-17 Women's World Cup took place in Baku. Askerov was in the coaching staff of Azerbaijan Under-17 Women's team in the qualifying and final stages of the tournament. Siyasat Asgarov worked as an assistant coach for Azerbaijan Under-19 women's national team in 2012-2013 and returned to the Azerbaijan Under-17 women's team in 2014. Asgarov became head coach of the Under-17 women's team team until 2018. Asgarov also managed Azerbaijan Under-15 women's team.

Siyasat Asgarov later returned to men's football. First, he worked as an assistant coach for FC Sabail's Under-17 team, then as head coach for the club's Under-19 team in the 2018-19 season, and then as head coach for the B-team.

In 2019, Asgarov continued to work in women's football again. Asgarov started to manage national A-team. Siyasat Asgarov was named as head coach of the Turkish FC Fomget in the season 2022-23 and the team won the Turkish championship. In the season 2023-24, Azerbaijan Women's national team achieved a historic success. Thus, Azerbaijan Women's national team took 1st place in their group in the UEFA Nations League and qualified for League B. Azerbaijan completed Group 3 of League C undefeated, earned 16 out of 18 possible points in matches against Montenegro, Cyprus and Faroe Islands.

Azerbaijan tested its strength in the next tournament's B League and even came very close to qualifying for the final stage of the European Championship. However, Azerbaijan lost to Portugal in the play-offs.

Siyasat Asgarov was appointed head coach of the women's team of FC Neftchi on February 1, 2024. The 37-year-old specialist coached both the Azerbaijan Women's national team and FC Neftchi's Women's team in parallel. Asgarov has won the Azerbaijani championship with FC Neftchi last and this season. Siyasat Asgarov went down in the history of Azerbaijani women's football as the first head coach to lead a team to the UEFA Champions League last year. FC Neftchi will compete in the most prestigious club tournament on the continent under Asgarov's leadership next season.



**Asgarov has won the Azerbaijani championship with FC Neftchi last and this season**

# AZƏRBAYCANDA QADIN FUTBOLUNUN YARANDIĞI İL

2006

# THE YEAR WOMEN'S FOOTBALL WAS ESTABLISHED IN AZERBAIJAN

Qadın futbolçulardan ibarət Azərbaycan milli komandası ilk dəfə 2006-cı ildə rəsmi oyuna çıxıb. Millimiz həmin vaxt Avropa çempionatının seçmə mərhələsinə qatılıb. Komandamızın ilk rəsmi qolunun müəllifi Svetlana Milyuxina olub. O, 2006-cı ilin noyabrında Rumınıya ilə səfər qarşılaşmasında (1:4) fərqlənib. İlk qələbəmiz isə bundan iki gün sonraya təsadüf edib. Millimiz Estoniya üzərində 3:2 hesablı qələbə qazanıb. Üç ildən sonra müxtəlif səbəblərdən fəaliyyətini dayandıran milli 10 ildən sonra - 2019-cu ildə çıxışını bərpa edib, AVRO-2022-nin seçmə mərhələsində çıxış edib.
Komandamızın ən böyükhesablı qələbəsi 4 top fərqi ilə olub. Millimiz 2009-cu ildə Makedoniya, 2015-ci ildə Bəhreyn və 2022-ci ildə Birləşmiş Ərəb Əmirliklərinə 4:0 hesabı ilə qalib gəlib.

Azerbaijan Women's national team played the first official international match within the UEFA Euro qualifiers in 2006. Svetlana Milyukhina scored the team's first official goal. She scored in an away match against Romania in November 2006 (1-4). The team's first victory came two days later. Azerbaijan won the match against Estonia 3-2. After three years of suspension for various reasons, Azerbaijan Women's team had stopped to play for 10 years. In 2019, the team played in the 2022 UEFA EURO qualifying round. Azerbaijan Women's team's biggest win was in a 4 goal difference with a result 4-0. Azerbaijan defeated Macedonia in 2009, Bahrain in 2015, and the United Arab Emirates in 2022.

# MİLLİNİN UĞURLARI
# ACHIEVEMENTS OF AZERBAIJAN WOMEN'S TEAM

AFFA

Azərbaycan millisinin qatıldığı ilk turnir AVRO-2009 olub. 2006-cı ilin noyabrında Rumıniyada təşkil olunan seçmə qrup mərhələsində ev sahiblərinə və Bolqarıstana məğlub olan komandamız Estoniya üzərində qələbə qazanıb. 2013 və 2017-ci illərdəki qitə birinciliyinə qatılmayan millimiz AVRO-2022-nin seçmə mərhələsində yenidən mübarizə aparıb. İspaniya, Çexiya, Polşa və Moldova ilə eyni qrupda yer alan qızlarımız son turda evdə Moldova üzərində 1:0 hesablı qələbə qazanıb. AVRO-2025-in seçmə mərhələsində bu dəfə rəqiblər İsveçrə, Türkiyə və Macarıstan kollektivləri olub. Macarıstanla səfərdə bərabərə qalan millimiz (1:1) doğma arenada Türkiyə yığmasına qalib gəlib – 1:0. Pley-offda iştirak hüququ əldə edən Siyasət Əsgərovun yetirmələri həlledici matçlarda Portuqaliyaya məğlub olub.
İldən-ilə inkişaf edən millimiz UEFA Millətlər Liqasının 2023/2024-cü illər mövsümündə uğura imza atıb. C Liqasında çıxış edən komandamız Monteneqro, Kipr və Farer adaları ilə birgə yer aldığı 3-cü qrupun məğlubedilməz komandası olub. İlk oyunda evdə Kiprlə 1:1 hesablı bərabərə qalan qızlarımız qalan 5 matçın hamısında qələbə sevinci yaşayıblar. Kipri səfərdə 1:0 hesabı ilə üstələyən milli Monteneqro (1:0, 3:0) və Farer adalarına (2:1, 1:0) heç bir şans verməyib. 16 xalla qrupu birinci pillədə tamamlayan Siyasət Əsgərovun kollektivi B Liqasına vəsiqə qazanıb.

The first tournament the Azerbaijan Women's team played was UEFA EURO-2009. After losing to the hosts and Bulgaria in the qualifying group stage held in Romania in November 2006, Azerbaijan beat Estonia. Azerbaijan did not participate in the continental championship in 2013 and 2017. Azerbaijan competed again in the 2022 UEFA EURO qualifying stage. The girls from Azerbaijan were in the same group as Spain, the Czech Republic, Poland and Moldova. Azerbaijan won Moldova 1-0 at home in the last round.
The opponents in the qualifying round of UEFA EURO-2025 were Switzerland, Turkey and Hungary. Azerbaijan Women's national team played adraw match against Hungary away (1-1), defeated the Turkish team at home 1-0. Having earned the right to participate in the playoffs, Siyasat Asgarov's team lost to Portugal in the decisive matches.
Azerbaijan has been developing year after year and has achieved success in the 2023/2024 UEFA Nations League. Azerbaijan Women's national team played in League C and was the undefeated team in Group 3, where the team seeded together with Montenegro, Cyprus and the Faroe Islands. After drawing 1-1 at home against Cyprus in the first game, our girls experienced the joy of victory in all 5 remaining matches. Azerbaijan defeated Cyprus 1-0 away and gave no chance to Montenegro (1-0, 3-0) and the Faroe Islands (2-1, 1-0). Siyasat Asgarov's team finished first in their group with 16 points and qualified for League B.

AFFA

# Millinin beynəlxalq oyunlarda qələbələri

Avropa çempionatlarının, dünya çempionatlarının seçmə mərhələlərində və UEFA Millətlər Liqasında qazanılan qələbələr:

# Wins of Azerbaijan Women's National team in international matches

Wins in the UEFA European championships qualifying rounds, FIFA World Cups qualifying rounds and UEFA Nations League:

**20.11.2006. AÇ-2009.**
Azərbaycan – Estoniya – 3:2 (Moqoşoaya)
Qollar: Kifayət Osmanova, 17; Olqa Vasilyeva, 81, 83

**28.10.2009.**
Azərbaycan – Uels – 2:1 (Bakı)
Qollar: Ana Atayeva, 33; Olqa Kaziyeva, 43

**23.02.2021.** AÇ-2022.
Azərbaycan - Moldova – 1:0 (Bakı)
Qol: Aysun Əliyeva, 46

**30.11.2021.**
Azərbaycan – Monteneqro – 1:0
Qol: Ayşən Əhmədova, 24

**02.09.2022.**
Malta – Azərbaycan – 0:2
Qollar: Kristina Bakarandze, 10; Diana Məmmədova, 60

**26.09.2023. ML-2023/2024.**
Monteneqro - Azərbaycan – 0:1 (Podqoritsa)
Qol: Nazlıcan Parlak, 84

**27.10.2023. ML-2023/2024.**
Farer adaları - Azərbaycan – 1:2 (Klaksvik)
Qollar: Kristina Bakarandze, 30; Mana Mollayeva, 50

**31.10.2023. ML-2023/2024.**
Azərbaycan - Monteneqro – 3:0 (Bakı)
Qollar: Mana Mollayeva, 58; Nazlıcan Parlak, 62; Aysun Əhmədova, 84

**01.12.2023. ML-2023/2024.**
Kipr - Azərbaycan – 0:1 (Limassol)
Qol: Diana Məmmədova, 8

**05.12.2023. ML-2023/2024.**
Azərbaycan – Farer adaları – 1:0 (Bakı)
Qol: Nigar Mirzəliyeva, 68

**04.06.2024. AÇ-2025.**
Azərbaycan - Türkiyə - 1:0 (Bakı)
Qol: Nigar Mirzəliyeva, 89

**04.04.2025. ML-2025.**
Litva - Azərbaycan – 0:2 (Vilnüs)
Qollar: Esra Manya, 20; Nigar Mirzəliyeva, 55

# AZƏRBAYCAN MİLLİSİNİN

## SON 5 OYUNU

Last 5 matches of the Azerbaijan national team

| | | | | |
|---|---|---|---|---|
| 28.11.2024 | Yoldaşlıq oyunu | Rusiya - Azərbaycan | 1:0 | Soçi, Rusiya |
| 02.12.2024 | Yoldaşlıq oyunu | Rusiya - Azərbaycan | 1:0 | Soçi, Rusiya |
| 21.02.2025 | UEFA Millətlər Liqası-2025 | Azərbaycan – Monteneqro | 0:0 | Bakı, Azərbaycan |
| 04.04.2025 | UEFA Millətlər Liqası-2025 | Litva - Azərbaycan | 0:2 | Vilnüs, Litva |
| 08.04.2025 | UEFA Millətlər Liqası-2025 | Monteneqro - Azərbaycan | 1:1 | Nikşiç, Monteneqro |

## RƏSMİ SON 5 OYUNU

The last 5 official games of the Azerbaijan national team

| | | | | |
|---|---|---|---|---|
| 25.10.2024 | AÇ-2025 | Azərbaycan - Portuqaliya | 1:4 | Bakı, Azərbaycan |
| 29.10.2024 | AÇ-2025 | Portuqaliya - Azərbaycan | 4:0 | Vizela, Portuqaliya |
| 21.02.2025 | UEFA Millətlər Liqası-2025 | Azərbaycan - Monteneqro | 0:0 | Bakı, Azərbaycan |
| 04.04.2025 | UEFA Millətlər Liqası-2025 | Litva - Azərbaycan | 0:2 | Vilnüs, Litva |
| 08.04.2025 | UEFA Millətlər Liqası-2025 | Monteneqro - Azərbaycan | 1:1 | Nikşiç, Monteneqro |

**HAZIRKI MÖVQEYİ:** *75-Cİ YER*
**ƏN YAXŞI MÖVQEYİ:** *58-Cİ YER (DEKABR 2009-CU İL)*
**ƏN ZƏİF MÖVQEYİ:** *83-CÜ YER (DEKABR 2021-Cİ İL)*

**CURRENT POSITION:** *75TH PLACE*
**BEST POSITION:** *58TH (DECEMBER 2009)*
**LOWEST POSITION:** *83RD (DECEMBER 2021)*

INSIDE FIFA

# AZƏRBAYCAN MİLLİSİNİN
# HEYƏTİ

## QAPIÇILAR/GOALKEEPERS
Aytac Şərifova
Nərgiz Əliyeva
Günay İsmayılova
Mehriban Şahməmmədova

## MÜDAFİƏÇİLƏR/DEFENDERS
Nigar Mirzəliyeva
Fidan Cəfərova
Yeliz Acar
Ayşən Əhmədova
Alina Dorofeyeva
Milana Rəhimova
Aysun Muradova
Alina Nəhmədova

## YARIMMÜDAFİƏÇİLƏR/MIDFIELDERS
Kamilla Məmmədova
Manə Mollayeva
Vüsalə Seyfəddinova
Firəngiz Teymurova
Jalə Məhsimova
Coşqunə Əliyeva
Diana Məmmədova
Ayşən Salamzadə
Peritan Bozdağ
Esra Manya

## HÜCUMÇULAR/FORWARDS
Xanım Əsədova
Sevinc Cəfərzadə

**Azerbaijan national team squad**

# MÜNDƏRİCAT CONTENT


| | | |
|---|---|---|
| *LİTVA MİLLİ KOMANDASI* | 4 | *LITHUANIA NATIONAL TEAM* |
| MİLLİNİN BAŞ MƏŞQÇİSİ | 6 | ABOUT THE HEAD COACH |
| MİLLİNİN HEYƏTİ | 8 | ABOUT THE SQUAD |
| LİTVA MİLLİSİNİN YADDAQALAN NƏTİCƏLƏRİ | 9 | MEMORABLE RESULTS OF THE LITHUANIA WOMEN'S NATIONAL TEAM |
| MİLLİNİN SON OYUNLARI VƏ FIFA REYTİNQİ | 10 | LAST MATCHES AND FIFA RANKING OF THE NATIONAL TEAM |
| *SEVİNC CƏFƏRZADƏNİN MÜSAHİBƏSİ* | 11 | *INTERVIEW OF SEVINJ JAFARZADA* |
| *NƏRGİZ ƏLİYEVANIN MÜSAHİBƏSİ* | 13 | *INTERVIEW OF NARGIZ ALIYEVA* |
| *NIGAR MIRZƏLIYEVANIN MÜSAHİBƏSİ* | 16 | *INTERVIEW OF NIGAR MIRZALIYEVA* |
| *SİYASƏT ƏSGƏROVUN MÜSAHİBƏSİ* | 18 | *INTERVIEW OF SIYASAT ASGAROV* |
| *STADİON HAQQINDA* | 19 | *ABOUT THE STADIUM* |
| *AZƏRBAYCAN MİLLİ KOMANDASI* | 22 | *AZERBAIJAN NATIONAL TEAM* |
| MİLLİNİN BAŞ MƏŞQÇİSİ | 24 | ABOUT THE HEAD COACH |
| AZƏRBAYCANDA QADIN FUTBOLUNUN YARANDIĞI İL | 26 | THE YEAR WOMEN'S FOOTBALL WAS ESTABLISHED IN AZERBAIJAN |
| MİLLİNİN UĞURLARI | 27 | ACHIEVEMENTS OF AZERBAIJAN WOMEN'S TEAM |
| MİLLİNİN BEYNƏLXALQ OYUNLARDA QƏLƏBƏLƏRİ | 28 | WINS OF NATIONAL TEAM IN INTERNATIONAL MATCHES |
| MİLLİNİN SON OYUNLARI VƏ FIFA REYTİNQİ | 29 | LAST MATCHES AND FIFA RANKING OF THE NATIONAL TEAM |
| MİLLİNİN HEYƏTİ | 30 | ABOUT THE SQUAD |


AFFA